***UOT-811.512.162***
***Səhifə: 140-143***
*https://doi.org/10.59849/2663-8967.2023.1.140*

***Fidan Ələkbərova***
***Bakı Avrasiya Universiteti***
***fidanalakbar@gmail.com***

# MUSİQİ ƏSƏRİNDƏ İNFORMASİYANIN XARAKTERİK XÜSUSİYYƏTLƏRİNƏ DAİR

***Açar sözlər:*** *struktur; dil; musiqi dili; kommunikasiya, musiqi intonasiyası; musiqi əsəri*
***Key words:*** *structure; language; musical speech; communication;* musical intonation; musical composition
***Ключевые слова:*** *структура; язык; музыкальная речь; коммуникация; музыкальная интонация; музыкальное произведение*

Musiqi gerçəkliyi əks etdirən incəsənət növüdür. Musiqi dünyanın ən sirli hadisələrindən biridir. Onun ifadə forması – səslər çətin dərk ediləndir. O qeyri-cismanidir və məhz bu səbəbdən onu nə görmək, nə toxunmaq, nə də dadını bilmək mümkün deyildir. V.V.Meduşevskinin fikrincə, "musiqi əsəri dünya haqqında təkrarsız obrazlı fikirləri daşıyan bütöv söyləmlərdir. Lakin yüzlərlə təkrarsız əsərlər sabit təkrarlanan element və qrammatik qaydaları özündə əks etdirir. Bu isə elə musiqidir" [1, s. 120].

Musiqini kommunikativ fəaliyyətin əsas növü, musiqi əsərini isə bəstəkarın göndərdiyi və dinləyici tərəfindən qəbul edilən məlumat kimi səciyyələndirmək olar. Bu baxımdan musiqini prinsip etibarı ilə bütün cəmiyyəti bürüyən güclü informasiya prosesi kimi izah etmək daha məqsədəuyğundur. Deməli, musiqi əsəri bəstəkarın dinləyicilərə ötürdüyü informasiyanın daşıyıcısıdır. Bu isə musiqi-kommunikativ aktın həyata keçirilməsi üçün musiqi məlumatlarının mətnlərini törədən və kommunikativ həlqələrlə musiqi-dil qabiliyyətini reallaşdıran musiqi təfəkkürünü əlaqələndirən musiqi dilinin müəyyən sisteminin olmasını şərtləndirir.

Öz təbiətinə, mənşəyinə, yerinə yetirdiyi funksiyalara görə dil işarəsi digər işarələr sistemindən fərqlənir. Qeyri-konvensional işarələrdən təşkil olunmuş dil unikal işarələr sistemidir, bütün semiotik sistemlərə münasibətdə mərkəzi mövqe tutur. Musiqi dünyanın xüsusi dərketmə vasitəsidir. Musiqiyə həm də prosessuallıq məxsusdur ki, bu da onu temporal təbiətli incəsənət növləri, məsələn, kino və teatrla doğmalaşdırır. Lakin onun qeyri-əyaniliyi onu digər incəsənət növləri ilə müqayisədə daha çox səsli nitqlə yaxınlaşdırır. Musiqi əsas ölçüləri səs məkanı və zaman olan xüsusi koordinantlar sistemində mövcuddur. Bu ölçülərin hər ikisi musiqinin ilkin xüsusiyyətlərini təşkil edirlər. Lakin mədəniyyətin səsli formalarının bütün oxşarlıqları müqabilində onlar arasında keyfiyyət fərqləri mövcuddur: dil verbal, musiqi averbaldır. Dildə anlam, məna ifadə olunursa, musiqidə yaşantılar ötürülür. Buna görə də musiqi daha geniş şərh diapazonuna malikdir. Heç bir incəsənət növü musiqi qədər azadlıq, estetik həzz bəxş edə bilmir. Dil hər şeyi həmişə ümumiləşdirir, onda yalnız ümumi olanlar mövcuddur, dil üçün istinad nöqtəsi qneseoloji obrazdır – anlayış həmişə mənaya tərəf can atır. Dil təkləri də ötürməyə qadirdir, lakin böyük konstruksiyalarla, mətnlərlə. Musiqi, əksinə, təkcəni, ani olanları ötürür, fərdi yaşantılara, təəssüratlara can atır, onun qneseoloji obrazı təsəvvürlər səviyyəsində təzahür edən obraz-anlamdır.

Əsas kommunikativ sistem dildir və Y.M.Lotmanın da qeyd etdiyi kimi, "bütün ikinci modelləşdirici sistemlər də bu və ya digər dərəcədə onun təsirini hiss edirlər"[2, s. 54]. E.Nazaykinskinin fikrincə, "dil baxımından yanaşma isə bu və ya digər bədii vasitələr sisteminin xüsusi semantik ehtiyatlarını, qəti sistemli təşkilini aşkar etməyə imkan verir" [3, s. 99].

Musiqi insanın səslərdə, intonasiyalarda və formalarda yaşayan canlı psixologiyasıdır. Musiqinin qavranılması onun (musiqinin) incəsənət növü kimi gerçəkliyin xüsusi, estetik, bədii formada əks etdirməyə malik olduğu mənaların başa düşülməsi və dərkinə yönəlmişdir. Musiqinin

qavranılması insanın müəyyən işarəvi və simvolik məna kompleksindən ibarət məzmuna malik musiqi materiyasını dərk etməyə qabil olduğu halda musiqililik hadisəsinə çevrilir.

Dilə, ilk növbədə, semiotika tətbiq edilə bildiyi halda, musiqiyə anlamların şərh vasitəsi kimi hermenevtika tətbiq edilə bilər. Musiqi həm də kommunikativ funksiyaya və onun yerinə yetirilməsi vasitələrinə, habelə koqnitiv funksiyaya malikdir. Musiqinin kommunikativ funksiyası ilə yanaşı, onunla bağlı yalnız danışanın emosional vəziyyətini deyil, həm də onun məzmuna münasibətini əks etdirən emosional funksiyası da xüsusi diqqət tələb edir. Bununla belə, individual varlıqları tərənnüm edən musiqidə modal funksiya birincidir. Y.V.Nazaykinskinin fikrincə, intonasiyanın emosional funksiyası nisbətən az əhəmiyyət kəsb edir. Müəllif mövcud əks fikrə də münasibətini bildirərək qeyd edir ki, nitqdə məhz sözlər özlərində mənanın daşıyıcıları kimi çıxış edirsə, musiqidə sözlər yox, yalnız intonasiya vardır və bu səbəbdən musiqi yalnız emosional mətnaltını ötürərkən məna ötürə bilməz. Bu fikri qəbul etməyən müəllif yazır: "məhz insanın emosional intonasiyasının mənalılığı, onun danışığın mənalı anları ilə birbaşa əlaqəsi, onun konkret məzmunu ilə, iradi istiqamətliliyi ilə heyvan qışqırıqlarından fərqlənir. İnsan intonasiyasının bu xüsusiyyəti musiqidə də qorunub saxlanılır"[4, s. 293].

Musiqi hər bir xalqın mədəni irsinin xəzinəsidir. Musiqi intonasiyası unikallığı musiqi mövzusuna təsir edən, musiqi informasiyasını özündə əks etdirən ümumiləşməni təmsil edir. Danışıq intonasiyası söyləmin mənasına əlavə emosional anlam qatmağa qadirdir və bəzən isə mənanı sözlərin mənası ilə ziddiyyət təşkil edənə qədər dəyişdirə bilir. Bununla belə, musiqinin intonasiyasının funksiyaları danışığın intonasiyası ilə yaxınlıq təşkil edir.

İndi isə "*musiqi dili*" və "*musiqi təfəkkürü*" anlayışlarına aydınlıq gətirmək istərdik. Amma bu anlayışların şərhində informasiya yanaşması bucağından çıxış etməyə üstünlük verəcəyik. Ümumilikdə musiqi dili altında elementləri musiqi ifadəliliyi vasitəsi kimi estetika ilə səciyyələndirilən sistem başa düşülür. Çünki, M.Q.Aranovskinin də qeyd etdiyi kimi, digər dillər kimi, musiqinin də dili "xüsusi informasiyanın ötürülməsi üçün nəzərdə tutulmuş kodlaşdırıcı sistemdir. Musiqi dili onun köməyi ilə ötürülən informasiyaya müəyyən məhdudiyyətlər qoyur" [5, s. 92]. Bu isə musiqi dilinin sistemi vasitəsi ilə yalnız kodlaşdırması mümkün olan informasiya ötürülə bilməsi deməkdir. Yeni, kodlaşdırılması mümkün ola bilməyən informasiyanın ötürülməsi isə mövcud musiqi dili sistemini təkamülü prosesinə gətirir.

Musiqi təfəkkürünə gəldikdə demək istərdik ki, onun ilkin və mühüm funksiyasını "informasiyanın yaradılması" kimi izah etmək olar [5, s. 92]. O, musiqi əsərində vacib informasiyanı kodlaşdıraraq onu maddi obyekt kimi strukturlaşdırır. M.Q.Aranovskinin fikrincə, musiqi dili kodlaşdırma sistemi kimi "maddi struktura keçməli olan informasiya və həmin strukturun özü arasında" yer tutur [5, s. 93]. Buradan belə bir nəticə hasil olur ki, musiqi təfəkkürü musiqi əsərinin mətnindən ibarət maddi struktura bürünərək musiqi dili vasitəsi ilə kodlaşdırılan informasiyanı yaradır.

M.Q.Aranovskinin musiqi mətni subyekt tərəfindən musiqiyə aid olan kimi şərh edilən, musiqi dilinin normaları əsasında qurulmuş strukturu təmsil edən səslər ardıcıllığı kimi şərh edir [4]. Musiqi mətni bədii informasiyanı ötürmək məqsədi daşıyan spesifik işarəvi strukturdur. M.Q.Aranovskinin konsepsiyasına görə, musiqi dili "qeyri-işarəvi semiotik sistem olduğundan" intonasiya-işarələrə malik deyildir, onun maddi substratları səs cərgələri pillələrinin dəstindən ibarətdir. Müəllif musiqidə diskret işarə törəmələrin olmadığına israr edir və verbal dildəki sözlər kimi musiqi vahidlərinin fərqləndirilməsinin mümkün olmadığından bəhs edir. Onun qənaətinə görə, "incəsənətin işarələr sistemi olduğunu təsdiq etmək üçün incəsənətdə işarələr səviyyəsi sadəcə mövcud deyildir, həm də konstitutiv funksiyanı yerinə yetirdiklərini, işarələrin özlərinin isə daimi mənalara malik olduğunu göstərmək lazımdır" [4, s. 101]. Ümumilikdə müəllif musiqi sənətinin təbiətinə münasibətdə "qeyri-işarəviliyi", "nitqə aid olmaması" haqqında fikirləri müdafiə edir.

Məlumdur ki, sözlü (verbal) dildən fərqli olaraq, bəzən hətta başa düşmədən belə dinləmək olar, onun emosional təsiri altına düşmək olar. Emosional vəziyyətlərin arxetipləri yetərincə hamı tərəfindən adekvat qiymətləndirilir. Hər bir musiqi əsərinin yaranmasının əsasında informasiya dayanır. Onların başa düşülməsi nə xüsusi dil, nə də musiqi təlimi tələb etmir. Tanış olmayan dildən fərqli olaraq, gözəlliyin estetik qanunları əsasında təşkillənmiş musiqi uzun müddət dinləyicinin

diqqətinə hakim kəsilə bilir. Musiqini onun bəstələndiyi dili bilmədən dinləmək müddəası, sözsüz ki, musiqinin cəmiyyətdə "musiqiçi – dinləyici" fəaliyyəti konsepsiyasının mahiyyətini təşkil edir.

Musiqi təfəkkürü ilə yaranan zaman o, ilkin olaraq bütövü, diskreti (bölünməzi) təmsil edir. Lakin musiqi əsərinin ötürülməsi diskret elementlərə üzvlənmə ilə birbaşa əlaqəlidir. Bu amili nəzərə alan M.Q.Aranovski öz tədqiqatında qeyd edir ki, "dil öz strukturunu informasiyanın üzərinə yerləşdirir, onu hissələrə, kvantlara böyür, eyni zamanda onları bütöv məlumatda birləşdirir" [6, s. 104]. Deməli, bu prosesi aşağıdakı kimi təqdim etmək olar: musiqi məlumatı musiqi təfəkkürü vasitəsi ilə informasiyanın üzvlənməsi nəticəsində əldə olunan elementlərdən yaranır. Məhz buna görə də informasiya nə məlumat, nə də ona daxil edilmiş işarə ilə eyniyyət təşkil etmir.

M.Q.Aranovskinin qənaətinə görə, bəstəkarın təxəyyülündə yaranmış musiqi əsəri musiqi informasiyasının ötürülməsi prosesi sayəsində dinləyicinin şüurunda təkrarlanmaq keyfiyyətinə malikdir. Bu prosesə isə "qəbul edilmiş işarələr sisteminin köməyi ilə yazılış, ifa, yazılışın oxunması aiddir" [6, s. 265]. Burada diqqəti çəkən məqam odur ki, müəllif musiqi informasiyası altında nəyi nəzərdə tutduğunu izah etmir. Lakin ümumilikdə aydın olur ki, buraya not və akustik mətn, yəni müəyyən növ maddi strukturlar aiddir.

M.Q.Aranovskinin hər iki məqaləsində informasiyaya verilən şərhlər ziddiyyətli olması ilə diqqəti cəlb edir. Müəllif birinci məqaləsində əsas diqqətini informasiyanın semantik tərəfinə, ikinci məqaləsində isə onun sintaktik tərəfinə (musiqi əsərinin not və akustik mətninin maddi strukturlarını əhatə edən) yönəldir. Bundan başqa, birinci məqalədə müəllif "informasiya", ikinci məqalədə isə "musiqi informasiyası" anlayışlarından istifadə etməyə üstünlük verir. Ümumilikdə isə M.Q.Aranovski informasiyanın musiqi növünün spesifikləşməsini birbaşa səs materialı ilə əlaqələndirir, halbuki semantikada musiqi spesifikləşməsi nəzərdən keçirilmir.

M.Q.Aranovski digər bir əsərində informasiyanı struktur kimi şərhini qəbul edir. Müəllifə görə, "struktur fenomeni informasiyanın məzmun anlamına münasibətdədir" [7, s. 24]. İnformasiya strukturdur, çünki forma "müəyyən informasiyanın xarici, maddi ötürülmə üsulunu yaratmaq üçün yaranır" [7, s. 15]. Bu ümumi informasiya-nəzəri müddəanı musiqi sahəsinə aid etsək aşağıdakı nəticəyə gələ bilərik. Musiqi informasiya ötürməyə ehtiyac olduqda yaranır, üfüqi (sintaqmatik) qaydada strukturlaşaraq melodiyanı yaradır və bununla da söyləmə çevrilir ki, bu da ona informasiyanı ötürməyə imkan verir. Musiqi tonlarının bütün koordinasiyaları birləşmələrin müxtəlifliyi və sıralanması ilə fərqlənir.

Beləliklə, informasiya yanaşması M.Q.Aranovski tərəfindən motivlərin struktur sərhədlərini müəyyən etmək üçün deyil, həm də birbaşa melodiyanın sintaktik strukturlarının təhlilində tətbiq edilir.

Musiqi intellektual təsir gücünə, məntiqi təfəkkürü inkişaf və təkmilləşmək qabiliyyətinə malikdir. Musiqinin məzmunu dinləyicinin mənəvi və intellektual imkanlarını genişləndirir, başqa sözlə, musiqi məşğuliyyəti subyektin əqli qabiliyyətini inkişaf etdirir. Musiqinin qavranılması zamanı koqnitiv bacarıqlar: eşitmə-ifadəli təsəvvürlər, ritmik quruluşları qəbul etmək qabiliyyəti, analitik musiqi qabiliyyəti, musiqidəki informasiyanı dekorlaşdırmaq bacarığı və s. tətbiq edilir.

## Ədəbiyyat siyahısı

1. Медушевский В. В. Специфика искусства. Сущность и специфика музыки // Спутник учителя музыки / С. С.Балашова, В. В. Медушевский, Г. С. Тарасов и др.; сост. Т. В. Челышева. – М.: Просвещение, 1993. -С. 64-125.

2. Лотман Ю.М. Анализ поэтического текста. Структура стиха. – Л.: Просвещение, 1972. -271 с.

3. Назайкинский Е. Логика музыкальной композиции. – М.: Музыка, 1982. – 319 с.

4. Арановский М.Г. Мышление, язык, семантика// Проблемы музыкального мышления. – М.: Музыка,1974. – с. 90-128.

5. Арановский М.Г. О психологических предпосылках предметно-пространственных слуховыхпредставлений // Проблемы музыкального мышления. – М.: Музыка, 1974. – с. 252–271.

6. Назайкинский Е. О психологии музыкального восприятия. – М.: Музыка, 1972
7. Арановский М. Г. Синтаксическая структурамелодии: исследование. – М.: Музыка, 1991.

***Fidan Ələkbərova***

***Musiqi əsərində informasiyanın xarakterik xüsusiyyətlərinə dair***

***Xülasə***

Məqalədə musiqi gerçəkliyi əks etdirən incəsənət növü kimi şərh edilir. Müəllif musiqi əsərlərinin intellektual təsir gücünə, məntiqi təfəkkürün inkişaf və təkmilləşmək qabiliyyətinə malik olduğunu qeyd edir. Qeyd edilir ki, musiqinin məzmunu dinləyicinin mənəvi və intellektual imkanlarını genişləndirir, onun əqli qabiliyyətini inkişaf etdirir. Kodlaşdırıcı sistem olan musiqi mətnləri informasiya ötürmək zərurətindən yaranır, sintaqmatik qaydada reallaşaraq melodiyanı formalaşdırır və informasiyanı adresata ötürməyə xidmət edən aktuallaşmış söyləmə çevrilir. Musiqinin qavranılmasında dinləyicinin koqnitiv bacarıqları: eşitmə-ifadəli təsəvvürlər, ritmik strukturları qəbul etmək qabiliyyəti, analitik musiqi səriştəsi, informasiyanı dekoqlaşdırmaq bacarığı və s. birlikdə hərəkət edir.

***Фидан Алакбарова***

***О характеристиках информации в музыкальном произведении***

***Резюме***

В статье музыка трактуется как вид искусства, отражающий действительность. Автор отмечает, что музыкальные произведения обладают интеллектуальным воздействием и способностью развивать и совершенствовать логическое мышление. Отмечается, что содержание музыки расширяет духовные и интеллектуальные возможности слушателя, развивает его умственные способности. Музыкальные тексты, представляющие собой систему кодирования, возникают из потребности передать информацию, реализуются синтагматически и образуют мелодию, становятся актуализированными высказываниями, служащими для передачи информации адресату. Когнитивные способности слушателя при восприятии музыки: слухово-выразительное воображение, способность к восприятию ритмических структур, аналитическая музыкальная компетентность, способность к декодированию информации и др. действует вместе.

***Fidan Alakbarova***

***On the  characteric features of information in musical works***

***Summary***

In the article, music is interpreted as an art form that reflects reality. The author notes that musical works have the intellectual influence and have also the ability to develop and improvelogical thinking. It is noted that the content of the music expands the spiritual and intellectual capabilities of the listener and develops his mental capacity. Musical texts, which are a coding system, arise from the need to convey information, are realized syntagmatically and form a melody, and become actualized utterances that serve to convey information to the addressee. Cognitive abilities of the listener in the perception of music: auditory-expressive imagination, ability to perceive rhythmic structures, analytical musical competence, ability to decode information, etc. function together.

***Çapa tövsiyə edən:*** ***Bakı Avrasiya Universiteti***

***Rəyçilər:*** ***professor F.Veysəlli***
***dosent C.Babayev***